# AZƏRBAYCAN RESPUBLİKASI

# DAXİLİ İŞLƏR NAZİRLİYİ

# POLİS AKADEMİYASI

**Elmi Şuranın 27 dekabr 2025-ci il**

**tarixli iclasının qərarı (protokol №2)**

## PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN

## REYTİNQ MEYARLARI

**Bakı – 2025**

**PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN REYTİNQ MEYARLARI**

## 1. Ümumi müddəalar

1.1. Bu Meyarlar Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında" və “Elm haqqında" Qanunlarını, Elm və Təhsil Nazirliyinin Kollegiyasının "Ali təhsil müəssisələrində elmi tədqiqat və elmi-metodiki işlərin təşkili qaydalarının, professor-müəllim heyətinin tədris işi vaxtı” 03.09.2024-cü il tarixli KQ-12 nömrəli Qərarını, Polis Akademiyasının Nizamnaməsini və Elmi Şurasının qərarlarını, yerli və xarici ali təhsil müəssisələrində qiymətləndirmənin tətbiqi təcrübəsini, eləcə də Avropa Ali Təhsil Məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatların (ESG) müddəalarını rəhbər tutur.

1.2. Bu Meyarlar Polis Akademiyasının professor-müəllim heyətinin (bundan sonra – PMH) elmi-pedaqoji, metodik, innovativ və ictimai fəaliyyətlərinin qiymətləndirilməsi qaydalarını müəyyən edir.

1.3. Reytinq sisteminin əsas məqsədi PMH-nin fəaliyyətini ölçüləbilən indikatorlarla qiymətləndirmək, tədrisin, elmi fəaliyyətin keyfiyyətini və təhsilalanların keyfiyyət səviyyəsini yüksəltməyə yönələn mexanizm formalaşdırmaqdır.

1.4. Reytinq qiymətləndirilməsi hər tədris ilinin sonunda həyata keçirilir.

1.5. Qiymətləndirmə nəticələri kafedraların illik hesabatlarında əks olunmaqla, əməkdaşların həvəsləndirilmə tədbirlərində (maddi və ya mənəvi təşviq, vəzifə yüksəlişi və s.) əsas meyar kimi istifadə olunur.

## 2. Qiymətləndirmənin əsas istiqamətləri

Qiymətləndirmədə ümumilikdə maksimum 0-100 bal nəzərdə tutulur və aşağıdakı fəaliyyət istiqamətləri üzrə həyata keçirilir:

2.1. elmi-tədqiqat fəaliyyəti – 0-40 bal;

2.2. pedaqoji fəaliyyət – 0-30 bal;

2.3. ictimai fəaliyyət – 0-15 bal;

2.4. peşəkar inkişaf və innovativ fəaliyyət – 0-15 bal.

## 3. Elmi-tədqiqat fəaliyyətinin qiymətləndirilməsi

Elmi-tədqiqat fəaliyyəti istiqaməti üzrə qiymətləndirmədə ümumilikdə 0-40 bal nəzərdə tutulur və aşağıdakı qaydada aparılır:

3.1. beynəlxalq indeksli jurnallarda (Scopus, Web of Science və s.) elmi məqalələrin dərc olunması – 0-15 bal;

3.2. yerli və xarici elmi jurnallarda məqalə və tezislərin nəşri – 0-10 bal;

3.3. beynəlxalq və respublika səviyyəli konfranslarda iştirak və çıxış – 0-5 bal;

3.4. elmi rəhbərlik (magistr dissertasiyası, doktorantura işi və s.) – 0-5 bal;

3.5. elmi layihələrdə iştirak – 0-5 bal.

## 4. Pedaqoji fəaliyyətin qiymətləndirilməsi

Pedaqoji fəaliyyət istiqaməti üzrə qiymətləndirmədə ümumilikdə 0-30 bal nəzərdə tutulur və aşağıdakı qaydada aparılır:

4.1. tədris olunan fənlərə müvafiq illik dərs yükü – 0-5 bal;

4.2. müasir tədris metodlarının tətbiqi – 0-5 bal;

4.3. tədris keyfiyyəti və təhsilalanların sorğularının nəticələri – 0-5 bal;

4.4. təhsil resursları, metodiki və elmi vəsaitlərin hazırlanması – 0-10 bal;

4.5. təhsilalanların fənn üzrə keyfiyyət göstəriciləri – 0-5 bal.

## 5. İctimai fəaliyyətin qiymətləndirilməsi

İctimai fəaliyyət istiqaməti üzrə qiymətləndirmədə ümumilikdə 0-15 bal nəzərdə tutulur və aşağıdakı qaydada aparılır:

5.1. Akademiyanın ictimai fəaliyyətində iştirak – 0-5 bal;

5.2. təhsilalanlarla aparılan profilaktik və sosial tədbirlərdə iştirak – 0-5 bal;

5.3. daxili intizam və günün nizam qaydalarının qorunması – 0-5 bal.

## 6. Peşəkar inkişaf və innovativ fəaliyyətin qiymətləndirilməsi

Peşəkar inkişaf və innovativ fəaliyyət istiqaməti üzrə qiymətləndirmədə ümumilikdə 0-15 bal nəzərdə tutulur və aşağıdakı qaydada aparılır:

6.1. təlim, seminar və ixtisasartırma kurslarında iştirak – 0-10 bal;

6.2. digər ali təhsil müəssisələrində pedaqoji təcrübə keçmə - 0-5 bal.

## 7. Qiymətləndirmənin nəticələri və tətbiqi

7.1. Reytinq nəticələri üzrə professor-müəllim heyətinin (PMH) ümumi balı müəyyən edilir və müvafiq cədvəldə əks olunur.

7.2. Ən yüksək nəticə göstərən müəllimlər mükafatlandırılmaya təqdim oluna bilərlər.

7.3. Reytinq cədvəli illik hesabatlarla birlikdə Tədris-metodiki şöbə tərəfindən ümumiləşdirilərək Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinə təqdim edilməklə təsdiq üçün Akademiyanın Elmi Şurasının müzakirəsinə çıxarılır.

## 8. Yekun müddəalar

8.1. Tədris ili ərzində fəlsəfə və ya elmlər doktorluğu proqramları üzrə müvəffəqiyyətlə dissertasiya müdafiə etmiş əməkdaşlar Meyarların 3-cü bəndinə əsasən 40 balla qiymətləndirilir.

8.2. Bu Meyarlar DİN-in Polis Akademiyasının Elmi Şurasının qərarı ilə təsdiq olunduğu tarixdən qüvvəyə minir.

8.3. Meyarlarda nəzərdə tutulmuş dəyişiklər və əlavələr yalnız Akademiyanın Elmi Şurasının qərarı ilə edilə bilər.

8.4. Meyarların icrası nəzarət Akademiya rəisinin birinci müavininə həvalə olunur.